## “Neftçi Peşəkar Futbol Klubu” Məhdud Məsuliyyətli Cəmiyyəti

## “Bakı Şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Qambay Vəzirov küçəsi, 2 a ünvanında yerləşən Türk Hava Yolları Futbol Mərkəzində” Neftçi Futbol Akademiyası” nın inzibati binasının ümumi tikinti işləri (10001ƏT-23)

## Açıq Satınalma Müsabiqəsinə dəvət

| | |
|---|---|
| **I.** | ***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***<br><br>Müsabiqədə iştirak haqqında müraciət<br>İştirak haqqının ödənilməsi barədə bank sənədi<br>Müsabiqə təklifi (maliyyə və texniki)<br><br>Müsabiqədə iştirak haqqında müraciət (*imzalanmış və möhürlənmiş*) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci **03.05.2023-cü il**, Bakı vaxtı ilə saat: **17:00-**a qədər Azərbaycan dillərində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.<br>Tələb olunan sənədlərin surətləri (*müsabiqə təklifi istisna olmaqla*) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir. |
| **II.** | ***Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***<br><br>▪ Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla **16.05.2023-cü il,** Bakı vaxtı ilə saat **12:00-a** qədər “Neftçi Peşəkar Futbol Klubu” MMC-nin satınalmalar qrupunun əlaqələndirici şəxsinə təqdim edilməlidir.<br>▪ Müsabiqə təklifi ayrı-ayrılıqda maliyyə və texniki təklifdən ibarət olmaqla hazırlanmalı və təqdim edilməlidir.<br>▪ Müsabiqə zərflərinin qəbulu zamanı texniki təkliflər ayrı, maliyyə təklifi ayrı zərflərdə qəbul ediləcəkdir.<br>▪ Müsabiqə təkliflərinin açılışı iki mərhələli formada yerinə yetiriləcəkdir.<br>Yəni, malliyyə və texniki təkliflər hər biri möhürlənmiş ayrı zərfdə qəbul edildikdən sonra ilk olaraq texniki təkliflərin qiymətləndirilməsi aparılacaqdır. Texniki təkliflər araşdırıldığı dövrdə maliyyə təklifləri Satınalan təşkilatda saxlanılacaqdır. Texniki qiymətləndirmə bitdikdən sonra yekun texniki rəyə müvafiq olaraq texniki tələblərə cavab verən təklif təqdim etmiş iddiaçılar müsabiqənin 2-ci mərhələsinə keçmiş hesab edilir və əvvəlcədən təyin edilmiş vaxtda, onlayn rejimdə, e-ünvana müsabiqəyə dəvət haqqında bildiriş göndəriləcəkdir. Əsas şərtlər toplusunun texniki tələblərinə cavab verməyən təklif təqdim etmiş İddiaçılar uyğunsuz təklif təqdim etmiş kimi kənarlaşdırılaraq, maliyyə təklifləri açılmadan geri qaytarılacaq.<br>▪ **Texniki və maliyyə təklifləri eyni zərfdə təqdim etmiş İddiaçıların təklifləri qəbul edilməyəcəkdir.**<br>▪ Təklifi təqdim edən və ya geri götürən İddiaçının nümayyəndələri tərəfindən etibarnamə təqdim edilməlidir və şəxsiyyətini təsdiq edən sənəd üzərində olmalıdır<br>▪ Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.<br>▪ İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilatın yerləşdiyi ünvana gəlməlidirlər.<br>▪ İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.<br>▪ İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.<br>• Müsabiqə təklifləri və tələb olunan digər sənədlər yazılı çap şəklində, Azərbaycan dilində, bir əsli və bir surəti olmaqla iki nüsxədə hazırlanmalı və hər səhifəsi iddiaçının səlahiyyətli şəxsi tərəfindən imzalanmalıdır. İddiaçı müsabiqə üzrə öz maliyyə və texniki təkliflərini “Əsli” və “Surəti” sözləri yazılmış ayrı-ayrı zərflərə qoyaraq imzalayıb möhürləməlidir. Zərflərin üzərində bu şərtlər toplusunun 1-ci səhifəsinə uyğun olaraq müsabiqə nömrəsi, satınalma predmetinin adı, zərflərin üzərində təklifin növü Texniki və ya Maliyyə təklifi sözləri, həmçinin iddiaçının ünvanı, nümayəndəsinin əlaqə nömrələri əlavə edilməklə qeyd edilməlidir. |

| | |
|---|---|
| | ▪ Müsabiqə təkliflərinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən ən azı 60 təqvim günü olmalıdır. Satınalan təşkilat təklifinin qüvvədə olma müddəti 60 gündən az olan iddiaçının təklifini tələblərə uyğun olmayan hesab edərək uzaqlaşdırmaq hüququnu özündə saxlayır. |
| **III.** | ***İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***<br>▪ Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər **590 AZN (ƏDV daxil)** və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafada göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.<br><br>**Benefisiarın adı: "Neftçi Peşəkar Futbol Klubu" Məhdud Məsuliyyətli CəmiyyətiHesab nömrə: AZ52RBTA23400900100944105712 AZN**<br>**VÖEN: 1700308281**<br>**"Rabitabank" ASC**<br>**Adı: Nərimanov filialı**<br>**Kodu: 505442**<br>**VÖEN: 9900001061-15001**<br>**Müxbir hesab: AZ61NABZ01350100000000006944**<br>**S.W.İ.F.T. RBTAAZ22**<br><br>▪ İştirak haqqı heç bir halda geri qaytarılmır.<br>▪ Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. |
| **IV.** | ***Müqavilənin icra müddəti:***<br>Satınalma müqaviləsi 2023-ci ilin sonuna qədər bağlanılır. |
| **V.** | **Bank təminatı :**<br>***Müsabiqə təklifinin təminatı : Bu müsabiqə üçün 50 000.00 AZN( əlli min manat ) dəyərində təklifin bank təminatı tələb olunur.***<br>▪ Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatlarını qəbul etməmək hüququnu özündə saxlayır.<br>▪ Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (pul vəsaitinin köçürülməsi, depozitlər və debutor borcdan dondurma) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanın VI paraqrafında göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.<br>▪ **Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır. Qəbul edilən avans maksimu 30% dəyərində tətbiq olunur.**<br>▪ Satınalma müqaviləsinin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir. |
| **VI.** | ***Satınalan təşkilatın ünvanı:***<br>AZ1025<br>Bakı şəhəri<br>Xətai rayonu<br>08 noyabr prospekti 64;<br>"Neftçi PFK" MMC<br>***Əlaqələndirici şəxs:*** Tələt Məmmədov<br><br>*karporativ telefon nömrəsi:* (+994) 12 424 46 40<br>*korporativ mobil nömrəsi:* +994 55 511 20 61<br>*korporativ elektron ünvanı:* tender@neftchi.az |

| | |
|---|---|
| VII. | ***Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:*** www.neftchi.az/ |
| VIII. | ***Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***<br>**"TEXNİKİ TƏKLİF"** zərflərinin açılışı Bakı vaxtı ilə **16.05.2023-cü il** tarixdə baş tutacaqdır. Dəqiq vaxt barədə iddiaçılara məlumat veriləcək. |